Ədalət.- 2021.- 22 yanvar. S. 5.

# VƏTƏN SİZƏ OĞUL DEDİ

***Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub***



16.01.1998-ci ildə Sumqayıt şəhərində anadan olan Əliyev Sərxan İslam oğlu Vətən müharibəsi başlanan zaman könüllü olaraq döyüşlərə qatılıb və torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.

Şəhidimiz Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

***Hadrut istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub***



18.02.1991-ci ildə Sumqayıt şəhərində anadan olan Quliyev Ramil Elşən oğlu Vətən müharibəsi başlanan zaman könüllü olaraq döyüşlərə qatılıb və torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Hadrut istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.

Şəhidimiz Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif olunub.

***Tərtər-Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub***



19.12.1991-ci ildə Sumqayıt şəhərində anadan olan Təhməzov Rövşən Zahid oğlu Vətən müharibəsi başlanan zaman Səfərbərlik Xidməti tərəfindən döyüşlərə yollanıb. Baş leytenant Rövşən Təhməzov torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Tərtər - Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub. Şəhidimiz Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

***Baş gizir Abdullayev Eldar***



23.07.1981-ci ildə Sumqayıt şəhərində anadan olan Abdullayev Eldar Firidun oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Hadrut istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.

Baş gizir Abdullayev Eldar Firidun oğlu Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

***Şuşa istiqamətində şəhid olan çavuş***



Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşu Mirzəyev Orxan Mehman oğlu 7 noyabr 2020-ci il tarixdə Şuşa istiqamətində gedən döyüşlərdə şəhid olub.

Bu barədə Nazirlik məlumat yayıb.

***Şəhid Elçin İsmayılov!***



23 yüksək rütbəli erməni zabitini təkbaşına məhv edən, Xüsusi Təyinatlı Qüvvələrin zabiti, "Yaşma" taborun qərargah rəisi müavini, kəşfiyyatçı, döyüş komandiri şəhid kapitan Elçin İsmayılov. Bir ailədən 3 qardaş savaşa atılmışdılar. Elçin bir çox ağır döyüşlərin iştirakçısı olmuşdu. "Şəhid olsam ağlamayın, əksinə, sevinin ki, o zirvəyə ucaldım".-deyərək evdən çıxmışdı. Dediyi kimi də sevdiyi torpaq uğrunda şəhid oldu. Ruhu şaddır.

Allah rəhmət eləsin!